Maliyyə Bazarlarına Nəzarət Palatası

# Qiymətli kağızlar bazarına dair yanvar-sentyabr ayları üzrə hesabat

**Bakı – 2016**

# Qiymətli kağızlar bazarının ümumi icmalı

Hesabat dövrü ərzində Bakı Fond Birjasında və birjadankənar bazarda keçirilən əməliyyatların ümumi həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 33% artaraq 11,877 milyard manat təşkil etmişdir. Cari il ərzində qiymətli kağızların ilkin bazarı 6.4 dəfə artaraq 8,169 milyard manata çatmışdır. Ümumilikdə korporativ qiymətli kağızlar bazarı 2.6 dəfə, dövlət qiymətli kağızlar bazarı isə 19.2 dəfə artmışdır. Korporativ qiymətli kağızların təkrar bazarında və törəmə maliyyə alətləri bazarında müşahidə olunan neqativ trendin fonunda, dövlət qiymətli kağızları bazarında və korporativ qiymətli kağızların ilkin bazarında müşahidə edilən canlanma ümumi bazar həcminin artımını şərtləndirmişdir.

**Ümumi göstəricilər**

| | 2016 | | 2015 | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | yanvar - sentyabr | | yanvar - sentyabr | | | |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Korporativ qiymətli kağızlar** | **2,080** | **8,287,491,583** | **3,593** | **3,142,450,065** | **2.6 dəfə** | **70%** |
| İlkin bazar | 155 | 7,908,487,290 | 181 | 1,273,139,147 | 6.2 dəfə | |
| Təkrar bazar | 1,925 | 379,004,293 | 3,412 | 1,869,310,918 | 4.9 dəfə | |
| **Dövlət qiymətli kağızları** | **158** | **380,109,642** | **14** | **19,777,809** | **19.2 dəfə** | **3%** |
| İlkin bazar | 111 | 261,429,317 | 0 | 0 | | |
| Təkrar bazar | 47 | 118,680,325 | 14 | 19,777,809 | 6 dəfə | |
| **Törəmə maliyyə alətləri** | **33,585** | **3,208,684,549** | **40,919** | **5,675,915,926** | **43.5%** | **27%** |
| **Repo/əks-repo** | **1** | **1,464,758** | **101** | **113,771,323** | **78 dəfə** | |
| **Qiymətli kağızlar bazarı** | **35,824** | **11,877,750,532** | **44,627** | **8,951,915,123** | **33%** | **100%** |
| İlkin bazar | 266 | 8,169,916,607 | 181 | 1,273,139,147 | 6.4 dəfə | |
| Təkrar bazar | 35,557 | 3,706,369,167 | 44,446 | 7,678,775,976 | 2.1 dəfə | |



# Korporativ qiymətli kağızlar

Hesabat dövründə korporativ qiymətli kağızlarla birjada və birjadankənar bazarda bağlanmış əqdlərin ümumi həcmi 2.6 dəfə artaraq 8,287 milyard manata çatmışdır. Bu müddət ərzində korporativ qiymətli kağızların ilkin bazarı 6.2 dəfə artaraq 7,9 milyard manat təşkil etmişdir. Buna baxmayaraq korporativ qiymətli kağızların təkrar bazarında geriləmə müşahidə olunmuş və bu alətlərlə təkrar bazar əməliyyatları 4.9 dəfə azalaraq 379 milyon manat təşkil etmişdir.

2016-ci ilin yanvar-sentyabr ayları ərzində səhm bazarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 40% artaraq 700 milyon manat təşkil etmişdir. Hesabat dövrü ərzində səhmlərin ilkin bazarı 2.6 dəfə artaraq 384 milyon manata çatmış, təkrar bazar isə 10% azalaraq 315 milyon manat təşkil etmişdir.

Korporativ istiqrazlar bazarı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2.9 dəfə artaraq 7,587 milyard manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə manatla yerləşdirilmiş korporativ istiqrazların həcmi 6.7 dəfə artaraq 7,501 milyard manat, xarici valyutada yerləşdirilmiş korporativ istiqrazların həcmi isə 3.2 dəfə artaraq 22 milyon manat olmuşdur.

Korporativ qiymətli kağızlar

| | 2016 yanvar - sentyabr | | 2015 yanvar - sentyabr | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Korporativ qiymətli kağızlar** | **2,080** | **8,287,491,583** | **3,593** | **3,142,450,065** | **2.6 dəfə** | **100%** |
| **Səhmlər** | **1,952** | **699,936,424** | **3,025** | **498,991,207** | **40%** | **8.4%** |
| Səhm (ilkin bazar) | 101 | 384,791,803 | 111 | 148,703,850 | **2.6 dəfə** | |
| Səhm (təkrar bazar) | 1,851 | 315,144,622 | 2,914 | 350,287,357 | **10%** | |
| **Korporativ istiqrazlar** | **128** | **7,587,555,159** | **568** | **2,643,458,857** | **2.9 dəfə** | **91.6%** |
| İlkin bazar (manatla) | 23 | 7,501,740,000 | 27 | 1,117,470,121 | **6.7 dəfə** | |
| İlkin bazar (xarici valyutada) | 31 | 21,955,487 | 43 | 6,965,176 | **3.2 dəfə** | |
| Təkrar bazar (manatla) | 34 | 51,235,793 | 493 | 1,506,096,799 | **29.4 dəfə** | |
| Təkrar bazar (xarici valyutada) | 40 | 12,623,879 | 5 | 12,926,762 | **2.3%** | |



# Dövlət qiymətli kağızları

Hesabat dövründə Bakı Fond Birjasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin istiqrazlarının yerləşdirilməsi üzrə 27 hərrac keçirilmiş və nəticədə dövlət qiymətli kağızları bazarında əqdlərin həcmi ötən il ilə müqayisədə 19.2 dəfə artaraq 380 milyon manat təşkil etmişdir. Dövlət istiqrazlarının təkrar bazarı hesabat dövrü ərzində 6 dəfə artaraq 118,6 milyon manat təşkil etmişdir.

Dövlət qiymətli kağızları

| | 2016 yanvar - sentyabr | | 2015 yanvar - sentyabr | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Dövlət qiymətli kağızları** | **158** | **380,109,642** | **14** | **19,777,809** | **19.2 dəfə** | **100%** |
| **Dövlət istiqrazları** | **158** | **380,109,642** | **14** | **19,777,809** | **19.2 dəfə** | **100%** |
| İlkin bazar | 111 | 261,429,317 | 0 | 0 | | 69% |
| Qısamüddətli | 80 | 186,470,397 | 0 | 0 | | |
| Orta və uzunmüddətli | 31 | 74,958,920 | 0 | 0 | | |
| Təkrar bazar | 47 | 118,680,325 | 14 | 19,777,809 | 6 dəfə | 31% |
| Qısamüddətli | 10 | 34,549,151 | 2 | 10,007,549 | 3.5 dəfə | |
| Orta və uzunmüddətli | 37 | 84,131,174 | 12 | 9,770,260 | 8.6 dəfə | |
| **Mərkəzi Bankın notları** | **0** | **0** | **0** | **0** | | **0%** |






# Törəmə maliyyə alətləri bazarı

Hesabat dövrü ərzində Bakı Fond Birjasının törəmə maliyyə alətləri platformasında ümumi məbləği 3 milyard manat olan valyuta əsaslı və 199,6 milyon manat olan əmtəə əsaslı törəmə maliyyə alətləri ilə ticarət əməliyyatları həyata keçirilmişdir. Ümumilikdə törəmə maliyyə alətləri bazarında keçən ilin müvafiq dövrü ilə müqayisədə 43.5% geriləmə müşahidə edilmişdir.

**Törəmə maliyyə alətləri bazarı**

| | 2016 | | 2015 | | məbləğ üzrə fərq (%) | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | yanvar - sentyabr | | yanvar - sentyabr | | | |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| Valyuta əsaslı fərq müq. | 29,554 | 3,009,028,637 | 36,368 | 5,595,944,709 | 46.2% | 94% |
| Əmtəə əsaslı fərq müq. | 4,031 | 199,655,912 | 4,551 | 79,971,217 | 2.5 dəfə | 6% |
| Cəmi | **33,585** | **3,208,684,549** | **40,919** | **5,675,915,926** | **43.5%** | **100%** |



# Repo və əks-repo əməliyyatları

Hesabat dövründə Bakı Fond Birjasında bir repo əməliyyatı qeydə alınmışdır və bu əqd ilk dəfə olaraq qeyri-bank olan hüquqi şəxslər arasında bağlanılmışdır. Repo müddəti 30 gün, repo faiz dərəcəsi 11%, məbləği isə 1,46 milyon manat olmuşdur. Əqd Maliyyə Nazirliyinin qısamüddətli dövlət istiqrazları ilə bağlanılmışdır. Korporativ qiymətli kağızlar üzrə isə repo əməliyyatı keçirilməmişdir.

Repo və əks-repo əməliyyatları

| | 2016 | | 2015 | | məbləğ üzrə fərq (%) | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | yanvar - sentyabr | | yanvar - sentyabr | | | |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Repo/əks-repo** | **1** | **1,464,758** | **101** | **113,771,323** | **78 dəfə** | **100%** |
| Korporativ istiqrazlar ilə repo | 0 | 0 | 71 | 81,553,723 | 100% | 0% |
| Dövlət istiqrazları ilə repo | 1 | 1,464,758 | 30 | 32,217,601 | 22 dəfə | 100% |
| Mərkəzi Bankın notları ilə repo | 0 | 0 | 0 | 0 | | 0% |